# Qələbə ən böyük təsəllimizdir





Ermənistanın qanla yoğrulan, terrora köklənən, ölümə hədəflənən siyasi-hərbi rəhbərliyi cəbhə xəttindən uzaq məsafədə yerləşən yaşayış məntəqələrimizi davamlı raket-artilleriya atəşinə tutmaqda davam edir. Qan qoxulu bu cinayət əməlləri ilə Ermənistan beynəlxalq hüququ ayaqlar altına atır, bütün dünya birliyinə meydan oxuyur.

Xəbər verildiyi kimi, oktyabrın 28-də Ermənistan silahlı qüvvələri Bərdəni - döyüş meydanından kifayət qədər aralıda yerləşən rayon mərkəzini raket atəşinə tutmuşlar. Düşmənin heç bir müharibə qanunlarına sığmayan bu qanlı cinayəti 21 nəfərin ölümü, 70 nəfərdən çox insanın yaralanması ilə nəticələndi. Təsəvvür edin, erməni qudurğanlığı o həddə çatıb ki, hadisənin sabahı günü Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri bölgəyə səfər edib baş vermiş cinayətin fəsadları ilə yerində tanış olarkən belə Ermənistan Bərdə və Tərtəri yenidən raket atəşinə tutdu.

Görəsən onlarda bu “güc”, bu “cəsarət” haradandır? Yəni onların havadarları insanlıq qarşısında məsuliyyətlərini bu dərəcədəmi itiriblər? İşğalçını - qanlı terror əməllərini saymazyanalıqla davam etdirən faşist xislətli bir toplumu durdurmaq dünyanın güc mərkəzləri üçün bu qədərmi müşküldür? Görəsən BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərini təxirə salmadan və qeyd-şərtsiz tərk etməsi barədə illər öncə qəbul etdiyi məlum qətnamələr adi kağız parçasından o yana niyə keçə bilmir? Nəyə görə ATƏT-in Minsk qrupunun ötən illər ərzində apardığı danışıqların, bölgəyə çoxsaylı səfərlərinin nəticəsi olmayıb?

Göründüyü kimi, suallar çoxdur və bu sualların cavabını ən böyük hakim olan zaman verdi: ATƏT başda olmaqla, heç bir beynəlxalq təşkilatın Qarabağ düyününü açmaq niyyəti yoxdur. Qərb, o cümlədən Avropa, söz sahibi olan dövlətlər Qarabağ problemini dondurmağa, məsələnin həlini qeyri-müəyyən tarixədək təxirə salmaqda maraqlıdırlar.

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti və ordumuzun şücaəti Qarabağ düyününün açılmasını yeni və tamamilə fərqli bir müstəviyə çıxardı. Artıq bir aydan çoxdur ki, Qarabağda müharibə gedir. Şanlı Azərbaycan Ordusu 30 ildən bəri erməni işğalı altında qalan ərazilərimizin xeyli hissəsini azad edib. Erməni yaraqlıları Azərbaycan əsgərinin qüdrəti qarşısında dözüm gətirə bilməyib tankını, topunu, silah-sursatını döyüş meydanında atıb qaçır. Heç şübhəsiz, biz onları gəldikləri yerə qədər - Ermənistanacan qovacağıq.

Apardığımız ədalətli Vətən müharibəsində qazandığımız zəfərlərin ən əsas amillərindən biri qardaş Türkiyənin bizə verdiyi mənəvi-siyasi dəstək, hər zaman Azərbaycanın yanında olacağını uca səslə bütün dünyaya bəyan etməsidir. Qürurvericidir ki, bu gün Türkiyə dünyada söz sahibi olan dövlətlərdən biridir. Nə xoş ki, qardaş ölkənin sürətlə artan nüfuzu qarşısında bir çoxları Qarabağa münasibətdə mövqelərini dəyişmək zorunda qalıblar.

İndi Laçın, Şuşa, Kəlbəcər dağlarında, Ağdərə bölgəsində şiddətli döyüşlər gedir. Dağlıq ərazilərdə döyüşmək, irəliləmək çətin olsa da, qəhrəman Azərbaycan əsgəri qarşıya çıxan bütün maneələri inamla dəf edir, düşmənə sarsıdıcı zərbələr vurur. Müharibənin nə ilə nəticələnəcəyi artıq hər kəsə məlumdur. Döyüşməyin, müqavimət göstərməyin daha mənasız olduğunu dərk edən erməni yaraqlıları arasında fərarilik sürətlə artmaqdadır. Ermənistan hərbi, siyasi və iqtisadi baxımdan demək olar ki, tamamilə tükənib. Əl açıb, dil töküb yalvarmadığı, yardım istəmədiyi dövlət qalmayıb. Paşinyanın davranışında dərinləşən psixoloji pozuntuları isə bütün dünya müşahidə edir. Ölkəni xaos bürüyüb, əhali vahimə içərisindədir. Paşinyanı istefaya çağırış səsləri daha gur eşidilir. Müharibə davam etdikcə Ermənistanda böhranın daha da dərinləşməsi qaçılmazdır.

Dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bəyan etmişdir ki, biz həlak olan, yaralanan dinc əhalimizin qisasını döyüş meydanında alırıq. Bu fikrin əyani təsdiqini hər gün görür və təsəlli tapırıq. Bərdəni raket zərbələrinə məruz qoyan atəş nöqtəsi də artıq məhv edilmişdir.

Xalqımız nikbindir, tək gözləntimiz varsa, o da cəbhədən gələn qələbə soraqlı xəbərlərdir. Ən önəmlisi odur ki, həlak olanlarımızın doğmaları, yaralanan, evi dağılan soydaşlarımız bu gün birmənalı olaraq eyni sözü deyirlər: “Nəyimiz varsa, Vətənə qurban, təki Qarabağ işğaldan azad olsun”.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2020.-4 noyabr.- S.7.